UOT 902

AYTƏN ƏSƏDOVA
Sumqayıt Dövlət Universiteti,
Tarix və coğrafiya fakültəsinin baş müəllimi
Orcid-0000-0002-5067-1393
asadova_ayten@bk.ru

TƏBRİZ ŞƏHƏRİNİN AĞQOYUNLU DÖVRÜNƏ AİD TARİXİ ABİDƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/205-209

Bu mövzuda Oğuz boylarından olan Bayandurlular-Ağqoyunlular dövrünə aid (XV-əsr) tarixi, memarlıq abidələri haqqında danışılır. Ağqoyunlu dövlətinin Türklərin və ən əsası Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri var. Onuda qeyd etmək lazımdır ki, tarixdə böyük iz buraxan Ağqoyunlu dövlətinin tarixi tarixçilərin, səyyahların, coğrafiyaşunasların, tarixçi və arxeoloqların daim marağına səbəb olmuşdur. Araşdırdığımız mövzuda Ağqoyunlu dövlətinin tarixinin öyrənilməsi üçün əsas mənbə olan abidələr haqqında bəhs edilir. Ağqoyunlu dövrünə aid abidələrə Şərqi Anadoluda (Türkiyə), Təbrizdə (Cənubi Azərbaycan - hal-hazırda İran), Qərbi Azərbaycanda (indiki Ermənistan-tarixi Azərbaycan torpaqları) və Azərbaycan ərazisində də rast gəlinir. Bu mövzuda isə əsasən Ağqoyunlu dövlətinin paytaxt şəhəri olan Təbriz şəhərinin tarixi abidələri haqqında bəhs edilir. Bu abidələrin hamısında Türk-İslam mədəniyyətinin izlərini görmək mümkündür. Abidələr içində qəbir üstü qoç və at heykəllərinin daha çox üstünlük təşkil etməsinin səbəbi isə (Türklərin qədim dövrdən ənənəsi) türk mədəniyyətinin nişanəsidir.

Açar sözlər: Ağqoyunlu dövləti, Təbriz, şəhər, abidə, məscid, mədrəsə, saray.

Giriş. Ağqoyunlu tarixinin öyrənilməsi üçün həm yazılı mənbələr, həmdə tarixi-memarlıq abidələrini böyük əhəmiyyəti var. Bu dövrün öyrənilməsi üçün ən qiymətli mənbələrə İstanbulda yerləşən Topqapı Sarayı Arxivlərində rast gəlinir. Ağqoyunlu Osmanlı diplomatik əlaqələrinin öyrənilməsində bu arxivdə olan məktublar üstünlük təşkil edir. Ağqoyunluların tarixini bu günümüzə daşıyan qiymətli muzey eksponatlarıda var. Bu eksponatlar Azərbaycanın Tarix Muzeyində, Türkiyənin Harbiyə muzeyində və dünyanın bir çox ölkələrində muzeyləri bəzəyir. Müasir İranın şimalında yerləşən Təbriz şəhərində olan Azərbaycan Muzeyində də Ağqoyunlular dövrünə aid olan qoç, qoyun başlı məzar daşları sərgilənməkdədir. Bu məzar daşları İranın şimal-qərbindən 1957-ci ildə toplanaraq muzeydə sərgilənir. Sərgilənən məzar daşları Qaraqoyunlu və Ağqoyunlular dövrünə aid edilir (XV-əsr). Bu məzar daşları üzərlərində olan epiqrafik yazı, təsvirlər, damğalar, bəzəmələrlə Türk toplumuna aid olduğunu təsdiq edir.

Ağqoyunlu dövlətinin qurucuları XlV-XV əsrlərdə Anadolunun qərbibdə yaşayan türklər idilər. Hakim olduğu bütün ərazilərdə Ağqoyunlu memarlıq, mədəniyyət abidələrini, tarixi əsərləri izləyirik. Ağqoyunlular Oğuz türklərinin Bayandur boyuna mənsub olub Kiçik Asiyanın şərqində məskunlaşan Qaraqoyunlulardan qərbdə yaşayırdılar. İlk vaxtlarda mərkəzi Diyarbəkir olan Ağqoyunlu dövlətinin ərazisi Mardinin şərqindən, Urfanın qərbinə qədər, şimaldan Ərzurum və Sivasın şimalına qədər uzanırdı. Şimalda Bayburtdan, Dəclə çayının müxtəlif qollara ayrıldığı ərazilərdə qışlaq və yaylaq həyat tərzi keçirirdilər. 1467-ci ildə Həsən Padşah (Uzun Həsən-1453-1478-ci illər) Qaraqoyunlu hökmdarını məğlub etdikdən sonra, həmin dövlətin ərazilərini öz dövlətinə birləşdirdi. Paytaxt Diyarbəkirdən Təbriz şəhərinə köçürüldü. 1461-ci ildən sonra on iki il ərzində Həsən Padşah dövlətinin ərazisini genişləndirmiş, İrak, Azərbaycan, İran ərazilərində Böyük Ağqoyunlu imperatorluğunun əsasını qoymuşdu [14, s.95]. Beləcə böyük dövlət quran Həsən Padşah tarixə yalnız hökmdar kimi yox, həmdə gələcəyə mədəni irs qoyan şəxsiyyət kimi də düşmüşdü. Ağqoyunluların hakim olduğu ərazilərdə çoxlu mədəniyyət, memarlıq abidələri, məscidlər, mədrəsələr, kitabxanalar və sair inşa edilmişdir. Bu abidələr Ağqoyunluların irsini, tarixini günümüzə daşıyan əsas mənbələrdir. Hətta bir sıra mənbələr Təbrizdə Həsən Padşahın iri saray kompleksi tikdirdiyinidə bildirirdilər. Mənbələrin verdiyi məlumata

görə sarayda 20 min otaq var idi [1, s.175]. Araşdırdığımız mövzuda Ağqoyunluların hakim olduğu ərazilərdə tarixinin öyrənilməsi üçün əsas mənbə olan abidələr haqqında bəhs edilir.

Əsas mətn. Təbriz şəhəri başda olmaqla Ağqoyunlu dövlətinin mədəni irsini tarixən hakim olduğu bütün ətazilərdə abidələr üzərindən izləyirik. Memarlıq abidələrini araşdırdıqda məlum olur ki, dövlətdə bu işlər məhz mərkəzin nəzarətində idi və memar, ustalar belə xüsusi yetişdirilirdi. Bütün memarlıq abidələrinin üslubunda Səlcuklardan qalma üslubu, Türk-İslam mədəniyyətini izləmiş oluruq. Tarixi-memarlıq abidələri içində Ağqoyunlu dövründə inşa edilən imarətləridə qeyd edə bilərik. İmarətlərin sahəsi geniş olub, çoxlu otaqlar, anbarlar, mətbəx, soba və əlavə tikililərdən ibarət idi. Hətta İmarət daxili işləri aparmaq üşün xüsusi şəxslər təyin edilirdi. Çünki imarətlər çox böyük idi. Bu imarətlər sırasında Bayburtda olan Fərahşah imarətini, Mardində Həsən Padşahın qardaşı Cahangir Bəy tərəfindən inşa etdirilən Cahangir imarətini göstərə bilərik. Fərahşah imarəti çox möhtəşəm olub məscid yaxınlığında tikilmişdir. Cahangir Bəy imarəti yaxınlığında isə həm xəstəxana, həmdə qonaq evləri inşa edilmişdir. Bu abidələr haqqında xüsusi ilə də Cahangir məscidi haqqında yazılı mənbələrdən məlumat alırıq (inşası 1468-ci il) [10, s.391; 9]. Çünki abidə günümüzə gəlib tam çatmamışdır. Məlumata görə 1474-cü ildə Kıprızdan Təbrizə getməli olan və Mardindən keçən Barbaro adlı səyyah imarətin yaxınlığında olan qonaq evində qalmışdı. Həmin səyyah qonaq evində qalmış və imarətxanada yemək yediyini qeyd etmişdi [11, s.10].

Təbriz memarlıq abidələrində kufi yazı nümunələri ilə bəzətmələr Ağqoyunlu abidələrində də xüsusi uslub-tərz idi. Çöl memarlığında istifadə edilən naxışlar həm Qaraqoyunlularda, həmdə Ağqoyunlularda eyni idi, hər iki dövlətə aid abidələrin memarlıq üslublarında ciddi bir fərq yoxdur. Ağqoyunluların hakimiyyəti dövrü bənzərsiz Azərbaycan memarlığının daha da inkişaf dövrüdür. X.Qasımovun fikrincə bu dövr klassik yetkinlik çağıdır. Bu dövr Azərbaycan memarlığı sabitliyi və bitkinliyi ilə seçilir [12, s.465]. Həm Qaraqoyunlu dövlətinin dövründə (1410-1468-ci illər), həmdə Ağqoyunlu dövlətinin dövründə (1468-1501-ci illər) daha çox dini tikililərin inşasında irəliləyiş nəzərə çarpır. Qaraqoyunlu mirası Ağqoyunluların əlinə keçdikdən sonrada Ağqoyunluların mərkəzi Diyarbəkirdən Təbrizə köçürüldü. Həsən Padşah (hicri-871-883, miladi-1466-1478-ci illər) Təbrizdə möhtəşəm kitabxana tikdirmişdir. Təbriz Qaraqoyunlular dövründə olduğu kimi Həsən Padşahın dövründə də möhtəşəm memarlıq tikililəri ilə öndə idi. Lakin bu dövrdə yaradılan memarlıq abidələrinin çox az bir hissəsi günümüzə gəlib çatmışdı. Ağqoyunlu-Türkmən saray üslubu Həsən Padşah və oğulları Sultan Xəlil (1478-ci il) və Sultan Yaqubun (1478-1490-cı illər) hakimiyyəti illərində Şiraz, Təbriz memarlığında qorunub saxlanılmışdır [12, s.350; 7]. Qaraqoyunluların dini memarlıq abidələri içində günümüzə gəlib çatan ən önəmli abidələrdən biri Təbriz Göy Məscididir. Tikintisinə Qaraqoyunlu Cahan Şah (1436-1467-ci illər) dönəmində başlanılmış, lakin Ağqoyunlular dövründə (SultanYaqubun-1478-1490-cı illər) başa çatmışdır. Abidə üzərində yazılı kitabə məhz bunu təstiq edir.

Qəbirüstü xatirə tikililərinə, türbələrə çox rast gəlinsədə dini tikililərdə inkişaf daha çox idi. Təbrizdə olan R.Klavixon öz müşahidələrindən bəhs edərək bildirirdi ki, "Bu şəhərdə heyrət doğuracaq oymalar və şəbəkələrlə bəzədilmiş, gözəl şüşələrlə bəzədilmiş çox böyük məscid və binalar var" [2, s.320]. Təbriz şəhərinin paytaxt olması onun inkişafına dahada təkan verirdi. Tikililər Həsən Padşahın özünün nəzarəti ilə yaşıllıqlara, bitki örtüyünə uyğunlaşdırılırdı. Təbriz şəhərində çünki böyük bağlar var idi. Bu dövrün ən nadir və böyük tikililərindən olan Bağı-nəsriyyə məhz Həsən Padşah tərəfindən tikdirilmişdir. Şəhərsalma mədəniyyətinin ən nadir incilərindən biri də Sultan Yaqubun (1478-1490-cı illər) tikdirdiyi Şimal bağı idi. Həsən Padşahın dövründə Təbrizdə tikilən üstüörtülü bazarlardan ən böyüyü Qeysəriyyə bazarı idi. Bu bazar şərq ölkələrinin ən məşhur bazarı kimi şöhrət tapmışdı. Bazarın üstü kümbəz və tağla örtülmüşdür. H.İnalcıq bildirirdi ki, Təbriz şəhəri ən önəmli ticarət mərkəzi idi, həm Ağqoyunlulardan əvvəl, həmdə Ağqoyunlular dövründə. Təbriz şəhərinə ən çox İtaliya tacirləri gəlirdi. Həmin dövrdə elçi olan Ambrosi Kontarini də Təbrizin ticarəti haqqında geniş məlumat verir. Şəhərdə alkaseriyə bənzər böyük evlərin və dükanların olduğunu bildirir. Alkasar isə İspaniyada mavritan üslubunda tikilən qəsr və ya qalalara deyilirdi. İosafat Barbaron öz Səyahətnaməsində İsfahanda və Təbrizdə tacirlər üçün çox otaqlı karvansarayların olduğunu da bildirir.

Təbrizin ən gözəl memarlıq abidələrindən biri də Təbriz Cümə məscididir. Bu möhtəşəm memarlıq abidəsidə Həsən Padşah (1453-1478) tərəfindən inşa etdirilmişdir. Bu haqda daha geniş məlumatı

səyahətşunas Övliya Çələbi verir. Məlumatlara görə Həsən Padşah vəfat etdikdən sonra məhz bu məscidin həyətində dəfn edilmişdir. Hər tərəfi naxışlarla, qiymətli qaşlarla bəzədilən məscid bir sənət əsəri idi. Məscidin dörd bir tərəfində olan pəncərələrdə "dəmirçilik sənətinə" və usta əməyinə başqa heç bir məsciddə rast gəlinmir [5, s.93]. Tikilinin cənub qapısı gözəl xətlərlə yazılmış kitabələr, yonma naxışlar, şəbəkələr, Rum üslubunda naxışlarla bəzədilmişdir. Bütün qapı və pəncərələr üzərində kitabələr var idi [11, s.469]. Bu yazıların hamısı Yaqut Müstəsimin xəttilə yazılmışdır. Mehrabın hər iki tərəfində iki gözəl daş parçası var idi, onların kəhrəba olduğu bildirilir. Dünyanın heç bir yerində bu sütunların tayı bərabəri yox idi [4, s.92; 8]. Məscidin içində dört tərəfdə pəncərələrdə olan "dəmirçilik sənəti" və ustalıqla hazırlanmış şüşələrə, bütün qapı və pəncərələr üzərində olan kitabələrə başqa heç bir məsciddə rast gəlinmir. Orta əsr səyahətçisi Evliya Çələbi Təbrizdə olduğu dövrdə bu məscid haqqında Səyahətnaməsində qeyd etmişdir [12].

Bu dövrdə Ağqoyunlu saraylarında İslam miniatürü və xəttatlıq sənəti də inkişaf etmişdi. S.Ərşarinin fikrinə görə, Xacə Tac Səlmani tərəfindən inkişaf etdirilən təliq xətti Ağqoyunlu sarayında Xacə Əbülhay tərəfindən bir sənət səviyyəsinə çatdırılmışdır. Ağqoyunlu saraylarında bəzədilməsində bu sənətdən istifadə edilmişdir. Bu sənət ustalarından Əbdülrahim və Əbdülkərim qardaşlarının adını çəkə bilərik. Əbdülrahim Sultan Xəlil Şiraz valisi olarkən Ağqoyunlu Yaqubun sarayında çalışmışdır.

Ağqoyunlular dövründə inşa etdirilən daha bir memarlıq abidəsi Təbrizin Sahibabad meydanında inşa etdirilən saray kompleksi idi. Bu sarayı Təbrizin mərkəzindən bir dərə ayırırdı. Sarayın fərqliliyi isə onda idi ki, bu saray bir bağın, meşənin içində salınmışdır. Saray "Həştbehişt" (Səkkiz cənnət) adlanırdı. Bu saray dörd böyük salon və çoxlu otaqlardan ibarət idi. Sarayın tikintisinə 1478-ci ildə başlanılmışdır. Sultan Yaqubun dövründə isə başa çatdırılmışdır. Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə Sahibabad bağının mərkəzində səkkizbucaqlı formada olan füruzəyi rəngli bu saray 1486-cı ildə tikilib başa çatdırılmışdır. Sarayın iti uclu qüllələri var idi [13, s.245]. Həştbehişt saray kompleksi haqqında ən mühüm məlumatları 1506-cı ildə Təbrizə səyahət edən Venesiyalı tacir öz səyahətnaməsində məlumat verir. Venesiyalı tacirdə sarayın Həsən Padşah tərəfindən tikilməyə başladığını bildirir [3, s.26].Venesiyali tacir eyni zamanda sarayın şəhər yaxınlığında yerləşdiyini və burada divarlarla əhatə edilən cümə məscidinin olduğunu bildirir [11, s.470]. Bu məscid çox böyük və çoxlu otaql,ardan ibarət idi. Məscidin divarları qızıl suyu ilə bəzədilmişdir. Sarayda bütün qapılar qızıl, lacivərdlə bəzədilmişdir. Dəhlizdə isə mərmər sütunlar var idi. Sarayın daxili divarları döyüş səhnələri və Həsən Padşahın qəbul etdiyi elçilər səhnəli rəsmlərlə bəzədilmişdir. XVl-əsr Venesiyalı tacirin verdiyi məlumata görə rəsmlərdə elçilərə verilən cavablar (Həsən Padşahın elçiləri qəbul etdiyi zaman) rəsmlərdə fars əlifbası ilə yazılmışdır. Sarayın daxilində tavan qızıl suyu ilə gözəl çəkildə bəzədilmişdir. Sarayın yaxınlığında eyni zamanda şəfa evidə tikilmişdir. Həsən Padşahın və Sultan Yaqubun dövründə burada mindən çox xəstənin müalicə olunduğu bildirilir [13; 6, s.228-229].

Nəticə. Araşdırdığımız abidələr üzərindən məlum olur ki, Ağqoyunlu dövrünə aid abidələrdə həm memarlıq, həm qəbir abidələrində özünə məxsusluq var idi. Bu dövrə aid abidələrdə, xüsusi ilə də tikililərin kompleks-külliyyat şəklində olduğunu görürük. Tikilən məscidlərin minarələri naxışlarla bəzədilmiş, qəbirüstü xatirə türbələri üstünlük təşkil edirdi. Ağqoyunlu abidələrinə daha çox Diyarbəkir, Mardin, Bingöl, Ərzincan, Urfa, Təbriz ərazilərində izləyirik. Abidələrdə bu dövrə aid dini görüşləri, mərasimlərin məzmununu da görürük.

Bu gün Ağqoyunlu abidələri Təbriz şəhəri başda olmaqla Azərbaycanın hazırki sərhədlərindən kənarda da olmaqdadır. Bütün abidələrdə (Ağqoyunlu əraziləri olan türt-oğuz yurdunda) Türk-İslam mədəniyyətinin və bu dövlətlərin özlərinə məxsus izlərini görürük. Araşdırdığımız mövzu Ağqoyunlu dövlətinin tarixinin öyrənilməsi, ən əsası Azətbaycan-Türk-İslam mədəniyyəti baxımından çox önəmlidir. Abidələrin memarlıq üslubunda XlV-XV-ci əsrlərdə kökləri Orta Asiyaya dayanan, Anadoluda , Azərbaycanda hakim olan türk mədəniyyətini daha əvvəlki əsrlərdən, Osmanlı, Səfəvi dövrlərinə ötürərək körpü rolunu oynamış olur. Yalnız bir məqalədə Təbrizin Ağqoyunlular dövrünə aid abidələri haqqında geniş məlumat vermək mümkünsüzdür. Bu gün əksəriyyəti tamamilə, bəziləri qismən dağılan Təbrizin Ağqoyunlular dövrünə aid abidələri özündə orta əsr Azərbaycan memarlığını əks etdirir. Bir çox müəlliflərin əsərlərində orta əsr (XV-XVlll əsr) Təbriz abidələri İran abidələri (müasir dövrdə İranın ərazisi olan-Cənubi Azərbaycan) kimi qeyd edildiyi bir vaxtda, bu abidələrin yenidən, hər tərəfli

tədqiqi vacibdir. Bu səbəbdən Təbriz şəhərinin abidələrin öyrənilməsi aktual məsələ olub, daim diqqət mərkəzində olmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. (2007).7-cilddə. lll-cild .(Xlll-XVlll əsrlər). Bakı, Elm, 592+56 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. (1989). Red: S.Əliyarlı. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 328 s.
3. Bayramov R. (2013). Xl-XVll əsrlər Azərbaycan memarlıq abidələrinin tipoloji təsnifatı. Bakı, Şərq-Qərb, 136 s.
4. Çələbi, E. (1997). Səyahətnamə.Türk dilindən işləyəni və şərhlərin müəllifi S.Onullahi. Bakı, ADN, 976 s. Çelebi, E. (1984). Evliya Çelebinin Seyahatnamesi, cild-l. İstanbul, Üçdal Neşriyat, s.57.
5. Dilber, U. (2021). Orta çağda Tebriz.Araşdırma meqalesi. Uluslararası Uygur Araşdırmaları Dergisi, C.18, s.82-106.
6. Erşahin, S. (2002). Akkoyunlular. Siyasi, kültürel, ekonomik vesosyal tarih. Ankara, 317 s.
7. Хунджи, Ф.Р. Тарих-и алам-арай-и амини. (1987). Перевод с английслого на русский. Т.А. Минорской. ред.З.М.Буниятов, О.А.Эфендиев. Баку, Элм, 172 с.
8. Jamila, H. (2016). History of the East in Tabriz miniatures. İRS-ART, 3 (26), Autumn, p.36-42.
9. John, E.Woods. (1993). 300 yıllıkTürk İmparatorluğu Akkoyunlular.İngilisçeden Türkçeye çeviren-Sibel Özbudin, EKYazılar veAçıklamalar-Necdet Sakaoğlu. İstanbul, Milliyyet yayınları, s.42.
10. Keleş, H. (2021). Anadoluda Akkoyunlu kültür mirası: tarihi eserler. Gazi Üniversitesi, Gazi Egitim Fakültesi. Orta öğretim sosyal alanlar egitimi bölümü.Tarih Egitimi nabilim Dalı, s.1-12.
11. Nəcəfli, T.H. (2012). Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (müasir Türkiyə tarixşunaslığında). Bakı, Çaşıoğlu, 604 s.
12. Okay, A. XV yüzyılda İran ve çevresinde gelişen minyatür üslupları ve sorunları üzərində bir etüt. Gazi Üniversitesi, Fen-Edebiyyat Fakültesi, Sanat tarihi bölümü. Ankara, s.347-364.
13. Seyyahların Gözüyle Sultanlar ve Savaşlar. (2007). Giovanni Maria Angiolello-Venedikli bir tüccar ve Vincenzo Aleksandrinin seyahetnameleri. Çeviri ve notlar: Tufan Gündüz. İstanbul, Yedditepe Yayınevi, 248 s.
14. Uzunçarşılı, H.İ. (2019). Osmanlı tarihi. ll-cilt. Türk Tarih Kurumu. 12 baskı. Ankara, 755 s.

АЙТАН АСАДОВА
Старщий преподаватель факультета истории и географии
Сумгайытского государственного унивеситета

ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ ПЕРИОДА АГКОЮНЛУ ГОРОДА ТЕБРИЗ

В данном исследовании рассматриваются исторические и архитектурные памятники периода государства Аккойунлу, принадлежащего к племени Байандур Огузов (XV век). Государство Аккойунлу занимает особое место в истории турков и, прежде всего, в истории государственности Азербайджана. Следует также отметить, что история государства Аккойунлу, оставившего значительный след в истории, всегда привлекала внимание историков, путешественников, географов и археологов. В исследуемом вопросе особое внимание уделено памятникам, которые являются основными источниками для изучения истории государства Аккойунлу. Эти памятники можно встретить не только на территории Азербайджана, но и в Восточной Анатолии (Турция), Тебризе (Южный Азербайджан, ныне Иран), Западном Азербайджане (ныне Армения, историческая территория Азербайджана) и других регионах. Все эти памятники отражают следы турецко-исламской культуры. Среди этих памятников часто встречаются надгробные скульптуры овец и лошадей, что является символом турецкой культуры, поскольку эта традиция существовала с древних времен.

Ключевые слова: Государство Аккойунлу, Тебриз, город, памятник, мечеть, медресе, дворец.

AYTAN ASADOVA
Senior Lecturer at the Faculty of History and Geography
of Sumgayit State University

HISTORICAL MONUMENTS OF THE AGGOYUNLU PERIOD OF TABRIZ CITY

This topic discusses the historical and architectural monuments from the era of the Aggoyunlu state, belonging to the Bayandur clan of the Oghuz tribes (15th century). The Aggoyunlu state has a special place in the history of the Turks and, most importantly, in the statehood history of Azerbaijan. It should also be noted that the history of the Aggoyunlu state, which left a significant mark on history, has always attracted the attention of historians, travelers, geographers, and archaeologists. The topic primarily focuses on the architectural monuments, which are the main sources for studying the history of the Aq Qoyunlu state. These monuments can be found not only in the territory of Azerbaijan but also in Eastern Anatolia (Turkiye), Tabriz (Southern Azerbaijan, currently Iran), Western Azerbaijan (now Armenia, historically part of Azerbaijan), and other regions. All of these monuments reflect the traces of Turkish-Islamic culture. Among these monuments, tombstone sculptures of rams and horses are more commonly found, which is a symbol of Turkish culture, as it has been a tradition since ancient times.

Keywords: Aggoyunlu State, Tabriz, city, monument, mosque, madrasa, palace.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 mart 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sona Məhərrəmova, t.e.d. Əmrah Dadaşov.